*UOT 159.9*

***Yeganə Baxış qızı Əskərova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*Orkid id:0000-0002-0590-9630*
https://doi.org/10.69682/azrt.2024.91(1).199-202

# YENİYETMƏ YAŞLI UŞAQLARDA MƏNLİK ŞÜURUNUN İNKİŞAFINDA AİLƏNİN ROLU

***Егяна Бахыш гызы Аскерова***
*доктор философии по психологии, старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# РОЛЬ СЕМЬИ В РАЗВИТИИ САМОСОЗНАНИЯ У ДЕТЕЙ ПОДРОСТКОВОГО ВОЗРАСТА

***Yegana Bakhish Askarova***
*doctor of philosophy in psychology*
*head teacher of Azerbaijan State Pedagogical University*

# THE ROLE OF THE FAMILY IN THE DEVELOPMENT OF SELF-CONSCIOUSNESS IN ADOLESCENT CHILDREN

**Xülasə.** Şüur insanın ətraf gerçəkliyə bələdləşməsinin subyektiv şərtidirsə, özünüdərketmə öz şəxsiyyətinə, öz daxili aləminə bələdləşməsidir, başqa sözlə, ilk növbədə isə özü haqqında biliklərin, təəssüratların dərkidir. Məhz özünüdərketmə sayəsində insan özünü təbiətdən və insanlardan ayrı, fərdi gerçəklik kimi dərk edir. Özünüdərketmənin əsas məzmunu bizim varlığımızda, öz "Mən" imizin təyin oblastında əks olunmuşdur. Yeniyetməlik yaş dövründə özünüdərketmənin inkişaf dinamikası o qədər aydın nəzərə çarpır ki, onun yeniyetmə şəxsiyyətinin formalaşmasında rolunu qeyd etməmək mümkün deyil. Yenityetmənin mənlik şüurunun formalaşması onun öz davranışının mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərketməsi ilə başlayır. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Yeniyetmə özünün şəxsiyyətinin müstəqilliyini qoruyub saxlamaqla refleksiya əsasında "mənlik şüurunu", "mən obraz", "real ve ideal mən"in əlaqəsini formalaşdırır və inkişaf etdirirlər.
***Açar sözlər:*** *yeniyetmə, şüur, şəxsiyyət, özünüdərketmə, özünüqiymətləndirmə, cəmiyyət, tərbiyə, ailə*

**Резюме.** Если сознание обуславливает субъективное ознакомления человека с окружающей действительностью, то самосознание – это знакомство со своей личностью, своим внутренним миром, иными словами, прежде всего, это понимание знаний и впечатлений о самом себе. Благодаря самосознанию человек осознает себя как индивидуальную реальность, отдельную от природы и людей. Основное содержание самосознания отражается в нашем существовании, в области нашего собственного «Я». Динамика развития самосознания в подростковом возрасте настолько отчетливо заметна, что невозможно не упомянуть о ее роли в формировании личности подростка. Формирование самосознания подростка начинается с понимания им нравственных качеств собственного поведения, характера и способностей. По мере взросления подросток начинает самостоятельно анализировать и оценивать свою личность. Сохраняя самостоятельность своей личности, у подростков на основе рефлексии формируются и развиваются «самосознание», «образ Я», «реальное и идеальное Я».
***Ключевые слова:*** *подросток, сознание, личность, самосознание, самооценка, общество, образование, семья*

**Summary.** If consciousness determines a person's subjective acquaintance with the surrounding reality, then self-awareness is acquaintance with one's personality, one's inner world, in other words, first of all, it is an

understanding of knowledge and impressions about oneself. Thanks to self-awareness, a person realizes himself as an individual reality, separate from nature and people. The main content of self-consciousness is reflected in our existence, in the area of our own "I". The dynamics of the development of self-awareness in adolescence are so clearly noticeable that it is impossible not to mention its role in the formation of a teenager's personality. The formation of a teenager's self-awareness begins with his understanding of the moral qualities of his own behavior, character and abilities. As a teenager grows up, he begins to independently analyze and evaluate his personality. While maintaining the independence of their personality, adolescents, on the basis of reflection, form and develop "self-awareness", "self-image", "real and ideal self".

***Key words:*** *teenager, consciousness, personality, self-awareness, self-esteem, society, education, family*

Yeniyetmə uşaq deyil, amma formalaşmış şəxsiyyət də deyil. Cəmiyyət üçün isə o sadəcə yeniyetmədir. Hər bir insan dəyişir və onun bu dəyişikliyi hiss etməsi, dərk etməsi və müəyyən etməsi zəruridir. Bu işdə ona kömək etmək lazımdır. Onun sərbəst düşüncələrini müdafiə etmək, ətraf aləmlə ünsiyyətdə yaranan problemləri dəf etmək, valideynlərlə münasibətlərini formalaşdırmağa kömək etmək psixoloqun əsas vəzifələrindəndir. Ona qarşı uşaq kimi deyil, yetkin insan kimi rəftar etmək lazımdır (2. s.10).

Qeyd edilməlidir ki, əksər psixoloqların gəldiyi qənaətə görə özünüdərketmənin predmeti şüurdur. Əgər şüur insanın ətraf gerçəkliyə bələdləşməsinin subyektiv şərtidirsə, özünüdərketmə öz şəxsiyyətinə, öz daxili aləminə bələdləşməsidir, başqa sözlə, ilk növbədə isə özü haqqında biliklərin, təəssüratların dərkidir. Məhz özünüdərketmə sayəsində insan özünü təbiətdən və insanlardan ayrı, fərdi gerçəklik kimi dərk edir. Özünüdərketmenin əsas məzmunu A. Q. Spirkinin sözləri ilə desək, bizim varlığımızda, öz "Mən" imizin təyin oblastında əks olunmuşdur. İnsanın özünüdərketməsi ilk növbədə "mənlik şüuru" nun, "Mən obrazı"nın, "Mən-konsepsiya"nın, özünüqiymətləndirmənin inkişafı və təşəkkülü ilə sıx bağlıdır.

Tədqiqatçılar A.Q. Ambrumva və L.I.Postopalova öz tədqiqatlarında (1) yeniyetmələrin suisidal davranışının sosial-psixoloji xüsusiyyətlərini öyrənmişlər. Onlar öyrənmişlər ki, yeniyetmələrin suisidal davranışı şəxsiyyətin sosial-psixoloji dezadaptasiyasının nəticəsi kimi yaranır. Müəlliflər qeyd edirlər ki, psixoloji cəhətdən sağlam olan yeniyetmələrdə suisidal hadisə bu yaş dövrü üçün xarakterik olan davranış nöqsanları sırasında müşahidə edilir (4, s. 155).

Müasir dövrdə yeniyetmələrin valideynləri tərəfindən hədsiz əzizlənməsi, bütün hərəkətlərinə güzəştə gedilməsi, bəzi hərəkət və davranışlarda onlara sərbəstlik verilməsi də pis nəticələr ilə bizi üz-üzə qoyur. Yeniyetməlik yaş dövründə özünüdərketmənin inkişaf dinamikası o qədər aydın nəzərə çarpır ki, onun yeniyetmə şəxsiyyətinin formalaşmasında rolunu qeyd etməmək mümkün deyil. Yeniyetmələrin yerli-yersiz əzizlənməsi onların psixi inkişafına pis təsir edir. Onun yaşı artsa da ağlı və iradəsi inkişaf etmir. Həyata, insanlara, özünə yanlış münasibət formalaşır. Bir çox ailələrdə isə uşaq və yeniyetmələrə qarşı həddən artıq tələbkar olurlar. Cəzanın ədalətli olmasına fikir verilmir, fiziki cəza vasitələrindən istifadə olunur (5, s.20). Aparılmış psixoloji tədqiqatların təhlilindən aydın olur ki, yeniyetmə oğlan və qızlarda özünüdərketmə, özünüqiymətləndirmə mövcud stereotip təsəvvürlərdən birbaşa asılıdır. Yəni kişilik və qadınlıq haqqındakı mövcud təsəvvürlər onların özünüqavrama və özünüdərketmə prosesində mühüm əhəmiyyətə malik amillərdir. Bu stereotiplər cəmiyyətdə tarixi deformasiya olunmuş, mürəkkəbləşmiş sosial rolların öz mahiyyətindən irəli gəlir.

İ.S. Kon (7) tədqiqatlarında müəyyən etmişdir ki, yeniyetmə oğlanlarda qızlara nisbətən emosional ton və qorxu hissi fərqlidir. Qızlarda bunun yüksək olması xarakterikdir. Belə vəziyyət onların özü nə inamını azaldır. İnandırma valideynlərin yeniyetmələrdə intizamı formalaşdırmağa yönəlmiş tərbiyəvi işində aparıcı yerlərdən birini tutmalıdır. Yeniyetməyə intizamlı davranışın ictimai-siyasi mahiyyətini onun başa düşdüyü formada göstərmək lazımdır (6, s.37).

A.I. Zaxarov, T.E. Sokolova və başqaları ailədə qarşılıqlı münasibətləri, xüsusilə də valideyn-övlad münasibətlərini araşdıraraq burada xüsusi hal kimi bu münasibətlərin düzgün qurulması zəminində özünüdərketmənin müsbət istiqamətdə inkişaf aspektlərini və səviyyələrini öyrənmişlər. Müəyyən edilmişdir ki, yeniyetmələrdə aşağı özünüqiymətləndirmənin yaranması nevrotik simptomlarla xüsusən də depressiya ilə

müqayisə olunur. Bu isə öz növbəsində onların özünüdərketməsində silinməz izlər buraxır, özünə, cəmiyyətə münasibətdə aqressivlik yaradır.

Azərbaycan psixoloqu M. Həmzəyev özünüdərketmə və mənlik şüurunun, şəxsiyyətin inkişafının və formalaşmasının əsas vasitələrindən biri olduğunu qeyd edir. Müəllif yazır: "Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışının mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərketməsi ilə başlayır. İlk dövrdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır" (3, s. 47). Yeniyetmə özünün şəxsiyyətinin müstəqilliyini qoruyub saxlamaqla refleksiya əsasında "mənlik şüurunu", "mən obraz", "real və ideal mən"in əlaqəsini formalaşdırır və inkişaf etdirirlər.

Yeniyetmədə şüurlu intizamlılıq formalaşdırmaq üçün mədəni davranış vərdişlərini də tərbiyə etmək böyük əhəmiyyət kəsb edir: diqqətlilik; kiçiklərə, böyüklərə, xəstələrə qayğı; böyüklərlə və yaşıdlarla görüşmək adəti; həmsöhbətini dinləmək bacarığı; ictimai yerlərdə özünü mədəni aparmaq; şəxsi va ictimai mülkiyyətə ehtiyatlı yanaşmaq; öz fikirlərində, əməllərində düzgün olmaq; fikirlərini ifadə etmək bacarığı və s. (6. s.64).

Özünü təsvir edərkən yeniyetmə hər şeydən əvvəl öz davranışının çevikliyini, dəyişkənliyini, situasiyadan asılılığını xüsusi vurğulayır, başqasını təsvir edərkən isə əksinə daha çox davamlı şəxsi keyfiyyətləri əsas tutur. Həmin təsvirlərdə başqa adamların sabit keyfiyyətləri onların davranışının müxtəlif situasiyalarda tənzim etdiyini ön plana çəkirlər. Başqa sözlə desək yaşlılar özlərini qavrayarkən daha çox subyektiv xarakteristikalara istinad edir, başqalarını qavrayarkən isə onları obyektiv daha çox dəyişməyən xüsusiyyətlərə malik adamlar kimi qavrayırlar. Belə dinamik qavrama yeniyetməlik yaş dövrünün sonunda formalaşır. "Mən" konsepsiyasının təzahür xüsusiyyətlərindən olan özünüqavrama hər bir yeniyetmənin fərdi – psixoloji xüsusiyyətlərindən asılı olaraq fərqli şəkildə özünü göstərir. Aparılmış psixoloji tədqiqatlar göstərir ki, insanlar bir-birini qavrayarkən adətən 3 cəhəti:

a) fiziki simanı:
b) ekspressiv davranışı:
c) geyim xüsusiyyətlərini qavrayırlar.

Müəyyən edilmişdir ki, insanlar bir-birini qavrayarkən adətən zahiri görkəmin: "boy", "göz", "saç", "burun" və s kimi atributlarına diqqət yetirirlər. Bu qanunauyğun cəhətdir. Lakin psixoloji tədqiqatlar göstərir ki, insanın insan tərəfindən qavranılması prosesində onların hamısı eyni dərəcədə rol oynamır. Bu baxımdan bəzi elementlərin xüsusilə – "göz", "saç", "burun" və s. əhəmiyyəti daha böyükdür. İnsanın insan tərəfindən qavranılmasında həmin elementlərin hamısı iştirak etməsə də ən azı birinin iştirakı zəruridir (1, s. 164)

Çalışan qadınlar haqqında aparılmış tədqiqatların nəticəsi göstərmişdir ki, anaların çalışması nəinki, övladların tərbiyəsinə mənfi təsir göstərmir, hətta, xüsusilə qız uşaqlarına müsbət təsir göstərə bilər. Qız uşaqlarının cəmiyyətə uyğunlaşma və xarakter əlamətlərinin inkişafı bu müsbət cəhətlərdən biridir. Digər tərəfdən məlum olmuşdur ki, çalışan anaların övladlarının aldıqları tərbiyə standart çərçivələrinə bağlı qalmayaraq, anaların onlarla yetərli zaman keçirmədiklərinə etiraz edirlər. Digər bir tədqiqatın nəticələri göstərmişdir ki, çalışan analar kiçik yaşlardan etibarən övladlarını təkbaşına təhsil almağa və müstəqil olmağa həvəsləndirirlər. Elə buna görə da bu uşaqlar öz əşyalarına diqqət edərək, ev tapşırıqlarını daha böyük həvəslə yerinə yetirir.

Qeyd edək ki, Klark Stüart tərəfindən aparılmış tədqiqatların nəticələri göstərmişdir ki, çalışan və ya ev işləri ilə həddindən ziyadə məşğul olan qadınların övladlarına yetərincə diqqət göstərilməsi bu uşaqların inkişafına mənfi təsir göstərir. Bu istiqamətdə tədqiqat aparan Haufman avtoritar ailələr haqqında yazır ki, bu ailələrdə tərbiyə olunan uşaqlar əmrə tabe və itaətedici xarakterə malik olsalar da, aqressiv reaksiyalar sərgiləyirlər. Bu uşaqlar özlərini hər zaman təhlükədə hiss edib, lazımı müstəqilliyə malik deyillər. Onlar dostları arasında yetərli sevimlilik qazana bilməyib, digər uşaqlara hörmət etmirlər. Böyüklərin tənqidlərinə diqqətsiz yanaşır, emosional sabitliyə malik deyillər. Bu uşaqlar səhv istiqamətə yönəlmiş etik davranışlara meyillidirlər.

Qeyd edək ki, avtoritar valideynlərin tərbiyəsi oğlanlar üzərində qızlara nisbətən daha mənfi nəticələrə gətirib çıxardır. Bu uşaqlar qavrama baxımından və cəmiyyətə uyğunlaşma

səviyyəsinə görə aşağı pillələrdə durur, təhsil və yaradıcılıq qabiliyyətləri azalır, həmyaşıdları ilə münasibətlərində liderlik, yaradıcılıq və özünə inam hissləri zəifləyir.

Görkəmli tədqiqatçı Saymond demokratik ailələr üzərində apardığı tədqiqatlarda yazır ki, bu ailələrin uşaqlarının dərs qiymətləri və intellekt indeksi başqalarından digər tərbiyə üsulları ilə müqayisədə daha üstündür. Bu uşaqlar yaradıcı, araşdırıcı olub, həmyaşıdları arasında çox sevilirlər. Liderlik qabiliyyətinə malikdirlər. Bu ailələrə mənsub övladların özünə inam hissi güclü olub, məsuliyyətli vəzifələrə yüksəlmə qabiliyyətinə malikdirlər. Bir çox araşdırmalardan sonra məlum olmuşdur ki, aqressiv uşaqlar fiziki güc tətbiq edərək tərbiyə etməyə çalışan valideynlərə sahibdirlər. Bu tərbiyə üsuluna görə, aqressiv davranışa malik olan uşaqlar valideynlərinin fiziki tənbeh etmələrinə məruz qalmış uşaqlardırlar. Bu uşaqlar aqressiv davranışı valideynlərdən öyrənirlər. Uşağın davranışının valideynlərdə təsir buraxdığı kimi, valideynlərin şəxsi davranışları da uşaq tərəfindən göstərilən reaksiyalara təsir edir. Aktiv və aqressiv analar uşaqları ilə passiv şəkildə davranırlar. Bu davranış passiv anaların davranışı ilə fərqlidir.

Aparılmış müxtəlif araşdırmaların nəticələri göstərmişdir ki, ailələrin demokratik baxışları uşaqların inkişaf səviyyəsinə maksimum şəkildə təsir göstərir. Bu valideynlərin övladlarının intellektual inkişafı, yaradıcı qabiliyyətləri və psixi sağlamlığı üçün münasib zəmin mövcuddur. Uşaqların özlərindən uzaqlaşdırıcı və totalitar ailələr, boş bünövrəli, üsyankar və aqressiv övladlara malikdirlər. Karen Xorni bu istiqamətdə apardığı araşdırmadan sonra bu nəticəyə gəlmişdir ki, ailə fərdləri arasındakı münasibət bütün doğru və səhv əməllərin əsasını təşkil edir.

**Problemin aktuallığı**. Uşağın motivasiya-tələbat sahəsinin inkişafı onu əhatə edən adamlarla ünsiyyəti özünün xüsusiyyətləri ilə fərqlənir. Əgər uşağın yaşlılarla ünsiyyəti emosional baxımdan fəsadlıdırsa, sevinc bəxş etmirsə, qəm-kədər gətirirsə, uşaqda yeni motivlər əmələ gəlmir, şəxsiyyətin düzgün tərbiyəsi mümkün olmur. Uşaq şəxsiyyətinin formalaşmasında, valideyn-uşaq münasibətlərinin qurulmasında nəsillərin təcrübəsindən, xalqın hikmət dünyasından istifadə etməyin əhəmiyyəti və faydası şəksizdir. Bu baxımdan yeniyetmə yaşlı uşaqlarda ”Mən” anlayışı və onun pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu kimi vacib bir mövzuya həsr olunması məqalənin aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi**. Elmi yenilik onunla bağlıdır ki, məqalədə “Mən” anlayışının mahiyyəti ilə bağlı görkəmli psixoloqların yanaşmaları diqqətə çatdırılır, özünüdərketmə sosial-psixoloji problem kimi nəzərdən keçirilərək ayrı-ayrı mərhələlərinin səciyyəvi cəhətləri göstərilir və bu istiqamətdə aparılmış müxtəlif tədqiqatların nəticələri təhlil olunur.

**Problemin tətbiqi əhəmiyyəti**. Məqalədən ali və orta ixtisas məktəblərin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar yararlana bilərlər.

**Ədəbiyyat:**


1. Bayramov, Ə.S. Psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı, – 1989. – 540 s.
2. Əlizadə, Ə.Ə. Ailə. / Ə.Ə. Əlizadə, A.N. Abbasov. – Bakı: “Maarif”, – 1989. – 256 s.
3. Həmzəyev, M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. / M.Ə. Həmzəyev. – Bakı: Adiloğlu, – 2003. – 282 s.
4. Амбрумова А.Г., Постаполова Л.И. Мотивы самоубийств // Социологические Исследования. 1987, №6, – стр. 52-60. 17
5. Чарльз Венар, Патрисия Керич. Психопатология развития детского и подросткого возраста. – 2007. – с 670.
6. Григорьева А.Г. Воспитание дисциплины подростков в семье. Мн. “нар. Освета” (Родителям о детях) – 1975. – с. 120.
7. Кон, И.С. Психология ранней юности. / И.С. Кон. – Л.: Просвещение, – 1989, – 255 с.


**E-mail: E-mail:** y.askerova@inbox.ru
**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* **Ü.A. Əfəndiyeva,**
*psixol.ü.fəls.dok., dos.* **S.H. Əlizadə**
**Redaksiyaya daxil olub:** 29.01.2024.